UOT 33.338

*Pərvin Sidqi qızı SOLTANLI*
*Azərbaycan Texniki Universitetinin*
*baş müəllimi, dissertant*
*"İqtisadiyyat və satatistika" kafedrası*
*E-mail: pervin.soltanli@aztu.edu.az*

# İQTİSADİ TƏHLÜKƏSİZLİYİN TƏMİNİNDƏ MƏŞĞULLUĞUN ROLU

*Xülasə*

**Tədqiqatın məqsədi -** Ölkənin milli təhlükəsizliyinin təmin olunmasında məşğulluq və işsizliyin aradan qaldırılmasına dair təklif və tövsiyələrin hazırlanmasından ibarətdir. Məşğulluq və işsizlik məsələsi bütün dövrlərdə aktual iqtisadi göstərici olub. Ancaq iqtisadiyyatın inkişafı və qloballaşma bu məsələlərin daha da gündəmdə olmasına səbəb olur.

**Tədqiqatın metodologiyası** - araşdırılan problemə sistemli və kompleks yanaşma. Məqalədə klassik və modern nəzəriyyələr araşdırılıb.

**Tədqiqatın tətbiqi əhəmiyyəti** - alınmış nəticələrdən işsizliyin aradan qaldırılması ilə bağlı nəzəri və praktiki problemlərin həll olunmasında istifadə edilə bilər.

**Tədqiqatın nəticələri** - Bazar iqtisadiyyatının inkişaf etdiyi ölkələrdə iqtisadi siyasətin, təkrar istehsalın iqtisadi artıma təsirinin tənzimlənməsinin optimallaşdırılması üzrə təklif və tövsiyələrin hazırlanmasından ibarətdir.

**Tədqiqatın orijinallığı və elmi yeniliyi** - Dünyanın bir çox ölkəsi işsizlik problemi ilə üzüzədir. Dünya əhalisinin sürətli artımı və kapital çatışmazlığı səbəbindən yeni iş yerlərinin azlığı işsizlik səviyyəsinin artmasına gətirib çıxardır.

İqtisadi anlayış olaraq məşğulluğu, işçi qüvvəsinin gəlir əldə etmək məqsədi ilə işləməsi və ya işlədilməsi olaraq ifadə edə bilərik. Məşğulluq məsələsinin əsasını əmək faktoru təşkil edir. Çünki əmək bəşəri faktordur. İnsanın birbaşa özü olan bu faktorun digər faktorlar içində xüsusi yeri var. Yaşadığımız dövrdə bir çox inkişaf etmiş ölkə və bu ölkədə həyatını ən yaxşı şəkildə davam etdirmək üçün gəlir əldə etmək məqsədilə əhalinin olduğunu düşündükdə məşğulluğun çox vacib sosial-iqtisadi anlayış olduğunu xatırlatmaq düzgün olacaq. İşsizliyin aradan qaldırılması, bu sahədə tənzimləmənin optimallaşdırılması ilə bağlı təklif və tövsiyələr irəli sürülmüşdür.

***Açar sözlər: məşğulluq, işsizlik, iqtisadi inkişaf, klassik məşğulluq nəzəriyyəsi, modern məşğulluq nəzəriyyəsi.***

## *Giriş*

Gücün əsas elementləri olan iqtisadi imkanlar və onun komponentləri, dövlət anlayışı yaranandan bəri mühüm məsələ kimi diqqət çəkir. Çünki iqtisadi sərvət və bunu qorumaq ehtiyacı bir çox müharibələrin səbəbi olmuşdur. Dünyanın iqtisadi inkişaf tarixi ilə dövlətlərin siyasi suverenliyi bir-birinə paraleldir. Vətəndaşların iqtisadi rifahına doğru irəliləyiş, gələcəyə qaygı dövlətlərin siyasi xəttinin əsasını təşkil edir.

İqtisadçı alimlər iqtisadi təhlükəsizliyi fərdlərin, ev təsərrüfatlarının və ya icmaların öz əsas ehtiyaclarını davamlı və ləyaqətlə ödəmək qabiliyyəti kimi müəyyən edir. Bu, fərdin fiziki ehtiyaclarına, ətraf mühitə və mövcud mədəniyyət standartlarına görə dəyişə bilər. Qida, əsas sığınacaq, geyim və gigiyena əsas ehtiyaclar kimi müvafiq xərclər kimi təsnif edilir; yaşayış üçün lazım olan əsas aktivlər və səhiyyə və təhsillə bağlı xərclər də uyğun gəlir.

İqtisadi təhlükəsizlik rifahın təməl daşıdır. İqtisadi sabitlik və müəyyən dərəcədə proqnozlaşdırıla bilənlik dövlətin və vətəndaşlarının gələcəyini planlaşdırmağa və onların inkişaf etməsinə imkan verir. Onlar yeniliyi təşviq edir, sosial əlaqələri gücləndirir və başqalarına və qurumlara inam yaradır. Əks təqdirdə iqtisadi etibarsızlıq xalqın narazılığına səbəb olur və siyasi sabitliyə təhlükə yaradır.

Ən çox istifadə edilən tərifə görə, “məşğulluq təminatı işçiləri özbaşına və qısa müddət ərzində işdən azad edilməkdən qorumaq, habelə uzunmüddətli əmək müqavilələri bağlamaq və işdən yayınma hallarının qarşısını alan əmək münasibətləri deməkdir”.

İqtisadi təhlükəsizliyin əhəmiyyəti nədir?

İqtisadi təhlükəsizlik tolerantlığı və xoşbəxtliyi, eləcə də böyümə və inkişafı gücləndirir. Beynəlxalq Əmək Bürosunun (BƏT) yeni araşdırması insanların iqtisadi təhlükəsizliyinin böyümə və inkişafdan faydalanmaqla yanaşı, şəxsi rifahı, xoşbəxtliyi və tolerantlığı təşviq etdiyini vurğulayır. Görünüş, yumşalma, prioritetləşdirmə və şifrələmə-bunlar hazırda təhlükəsizliyin ən vacib elementləridir.

Britaniya və bəzi Qərb ölkələri XVIII əsrin sonunda mühüm iqtisadi və siyasi dəyişikliklərə məruz qaldı. Əvvəlki dövrlərlə müqayisədə texniki yeniliklərin sənayeyə tətbiqi, zəif inkişaf edən texniki yeniliklərin sənayeyə tətbiqi bu əsrdə intensivləşmişdi. İngiltərədə bu dövr “Sənaye inqilabı”adlandırıldı. Sənaye inqilabı ilə yanaşı “İqtisadi adam” xüsusiyyətlərinə sahib olan kapitalist sahibkarlar, istehsal vasitələrindən məhrum qalan fəhlə sinfi meydana gəldi. Bundan başqa Fransa İnqilabı (1789) Orta əsrlərdən qalan cəmiyyətləri təmizlədi və “fərdiyyətçilik və azadlıq” hakimiyyətə gələn burjuaziyanın şüarı oldu. Bu, yeni sinfin siyasi hegemonluğu ələ keçirməsinin zəfəri sayıla bilər. İngilis kaloniyası olan Şimali Amerikada müstəqil dövlətin (ABŞ) yaranması merkantilist müstəmləkəçiliyinin əhəmiyyətli dayağını itirməsinə səbəb oldu.

Klassik iqtisadiyyat qiymət, milli istehsal, gəlir, məşğulluq, istehsal, qənaət və investisiya səviyyəsi kimi əsas makroiqtisadi dəyişənləri izah edən ilk sistematik təşəbbüs kimi qabul edilir. Klassik iqtisadi düşüncənin əsas təmsilçilərinə Adam Smiti, Jean Patiiste Sayı, David Rikardonu, John Stuard Milli, Robert Maltusu və Francois Quesnayı daxil edə bilərik. Bunlara klassik nəzəriyyəni inkişaf etdirən Marşal və Pigonu da daxil etmək olar.

1770-ci ildən 1930-cu ilə qədər olan dövrdə nəşr olunan əsərlərdə qiymətlərin və ödənişlərin elastik olduğunu və iqtisadiyyatda rəqabətli bazarların olduğunu iddia edirdilər.

Klassik məktəbin başlanğıcı 1776-cı ildə Adam Smitin “Xalqların zənginliyi”nin nəşr olunduğu il, sonu isə 1873-cü il John Stuart Millin olduğu il qəbul edilərsə bir əsr hökmranlıq sürdüyünü demək olar. Onlar yeni dövrün fəlsəfəsini, “Sənaye inqilabı”nın iqtisadi şərtlərini araşdırmış və onları elmi qaydalarla əlaqələndirməyə çalışmışdı. Bu yeni düşüncənin ən məşhur təmsilçisi İsveç əsilli, Glasgov Universitetinin də professoru olan Adam Smit idi.

Klassik iqtisadiyyat əslində özündən əvvəlki iqtisadi düşüncə konsepsiyasına malik olan merkantilizmə cavab olaraq ortaya çıxdı. Merkantilizm XVI-XVII əsrdə Avropada xalqların yaranması ilə inkişaf edən düşüncə sistemidir. Klassiklər merkantilistlərin 2 əsas fikrinə xüsusilə qarşı çıxmışdı.

1. Metalizm olaraq adlandırıla biləcək bir xalqın zənginliyinin sahib olduğu qiymətli metalın miqdarı ilə bağlı olduğu;

2. Kapitalist sisteminin inkişafı üçün dövlət müdaxiləsinin vacibliyinə olan inam.

Metalizm ölkələri ixracı həvəsləndirmək və idxalı azaltmaq, xarici ticarət yolu ilə qızıl və gümüş ehtiyatını artırmaq istiqamətində siyasətə yönləndirilmişdi. Bu cür xarici ticarət siyasəti dövlət müdaxiləsinə gətirib çıxardı. Bundan əlavə yerli sənayenin inkişafını təmin etmək məqsədi ilə bəşəri və təbii ehtiyatların inkişafı üçün də dövlət müdaxiləsinin zəruri olduğu fikri müdafiə edilmişdi.

Klassik iqtisadçılar iqtisadi problemlərin ən effektiv həlli üçün bazar iqtisadiyyatı nəzəriyyəsini inkişaf etdirmişdilər. Bazar iqtisadiyyatının qaydalarına riayət edildiyi təqdirdə, iqtisadi problemlərin öz-özlüyündən və mövcud olan imkanlar çərçivəsində ən effektiv şəkildə həll ediləcəyini iddia edirdilər. Dövləti məhdud sahədə fəaliyyət göstərən və iqtisadiyyata müdaxilə etməyən bir vahid kimi bildirmişdilər.

Tam məşğulluğu əldə etmək inflyasiya və deflyasiya kimi qiymət hərəkətindən qaçmaq üçün dövlətin iqtisadiyyata müdaxiləsinə ehtiyac olmadığını və iqtisadiyyatda “görünməz əl” özlüyündən tam məşğulluğu və qiymət sabitliyini təmin edə biləcəyini proqnozlaşdırmışdılar.

Klassik iqtisadi nəzəriyyənin əsas fərziyələrinə aşağıdakılar daxildir:

- iqtisadiyyatda mükəmməl rəqabət şəraiti;
- qiymət, faiz dərəcəsi və əmtəə qiymətləri elastikdir;
- hər təklif öz tələbini yaradır (Say qanunu).

İqtisadiyyatda pul ancaq əməliyyat üçün istənilir, pul neytraldır. Pul təklifi ancaq mütləq qiymət səviyyəsinə təsir göstərir, nisbi qiymətlərə və real iqtisadiyyata təsir göstərmir.

**Say qanunu.** "Xalqların zənginliyi" ilə təməli qoyulan klassik iqtisadi nəzəriyyəyə Smitdən sonra tanınmış iqtisadçı Con Baptiste Say dəstək verdi. Say "Xalqların zənginliyi" əsərini həm Avropaya, həm də Amerikaya tanıtdırmışdı.

Eyni zamanda "Say qanunu" kimi bilinən nəzəriyyə ilə "Klassik iqtisadi nəzəriyyə"yə dəstək olmuşdu. "Say qanunu" na həmçinin "Məxrəclər Qanunu" da deyirlər. Məxrəc sözü satış, versiya buraxılış yeri, mal və xidmətlərin təklif edildiyi yer, bazar mənasını verir.

**Keynsin məşğulluq nəzəriyyəsi.** John Meynard Keyns 1936-cı ildə "The General theory of Employment, interest and Money"- "Məşğulluq, Faiz və Pulun ümumi nəzəriyyəsi" əsərini nəşr etdirdi.

Bu dövrdə sənayeləşmiş bir çox ölkədə iqtisadi nizam, böhran nəticəsində pozuldu. İşsizlik rekord həddə çatdı və davamlı olaraq artım baş verirdi. 1921-ci ildə İngiltərədə başlayan iqtisadi böhran qısa fasilələr ilə 1930-cu illərdə təsirini daha da artırdı. [1.səh 235]

İngiltərədə bəzi siyasətçilər işsizliyin qarşısını almaq üçün ictimai işlər proqramını irəli sürdülər və Keyns də bu siyasəti dəstəklədi. Bu dövrdə getdikcə azalan ixrac həcmini artırmaq məqsədi ilə Keyns İngilis Sterlinqinin qızıla konvertasiya olunmasının ləğv olunmasını istəyirdi. Keyns həmçinin iddia edirdi ki, iqtidarda olan Mühafizəkarlar Partiyasının tətbiq etdiyi iqtisadi siyasət işsizlik səviyyəsini artırır.

Keynsin bu mövzudakı fikirləri tərəfdar tapmadı. Ancaq 1929-cu ildə ABŞ-da başlayan iqtisadi böhran İngiltərəyə qədər yayıldı və 1931-cı ildə İngilis Sterlinqi devalvasiya edildi. Bu proses İngiltərənin ixracını artırdı. ABŞ-da iqtidarda olan Ruzvelt də bir sıra iqtisadi siyasət yürütməyə başladı. Bu siyasətdən bəziləri dövlət xərclərini, qiyməti artırmaq və dolları devalvasiya edərək ixracı artırmaq oldu.

Xarici ticarətdə qəbul edilən "Qonşunu səfalətə itələ" siyasəti reallaşdıqda ölkələrarası ticarət azaldı və məşğulluğun artması planı həyata keçmədi [2, s. 235-237].

**Müasir məşğulluq nəzəriyyəsi - Ümumi nəzəriyyə**

Keynsin Ümumi nəzəriyyəsinin əsas məqsədi istehsal və bütünlükdə məşğulluq səviyyəsində yaranan dəyişiklikləri müəyyənləşdirən qüvvələri araşdırmaq idi [3, s. 254]

Keyns "ümumi nəzəriyyə"sində iqtisadiyyatın özünü tarazlaya bilməyəcəyini, dövlətin iqtisadiyyata müdaxilə edə biləcəyi iqtisadi siyasətin olmasının vacibliyini bildirmişdi.

Keynsin müasir məşğulluq nəzəriyyəsinə əsasən iqtisadiyyatda milli gəlirin hansı səviyyədə olacağını o ölkənin sahib olduğu istehsal gücü müəyyənləşdirir. Məşğulluq artdıqca istehsal gücündən daha çox istifadə ediləcək, beləliklə daha çox məhsul və xidmət istehsal olunacaq və milli gəlir artacaq.

Keynsin müasir məşğulluq nəzəriyyəsinə qazandırdığı əhəmiyyətli anlayışlardan biri də " effektiv tələb"dir. Effektiv tələb, satın alma gücünə malik olanların tələbini və ya başqa sözlə satın alma gücü ilə dəstəklənən tələbi ifadə edir. [4, s. 147]

Başqa cür ifadə etsək, effektiv tələb, cəmiyyətdə müxtəlif mal və xidmətləri almaq üçün xərclənmiş pul miqdarıdır və bu səbəbdən cəmiyyətdən əldə edilən gəlirlərin cəminə, yəni milli gəlirə bərabər olacaq.

Keynsin "klassiklərin elastik əməkhaqqı səviyyəsi işsizliyi həll edəcək və əgər işçilər aşağı əməkhaqqına razılaşsalar işsizlik problemi aradan qalxacaq" fikrinə qarşı çıxıb.

Yeni klassiklərə görə məşğulluğu qiymətlər və əməkhaqqı müəyyənləşdirir fikrini rədd edərək iqtisadiyyatda istehsal olunan mal və xidmətlərə olan ümumi tələbin məşğulluğu müəyyənləşdirən təməl faktor olduğunu iddia edirdi. Müxtəlif siyasət yürütməklə iqtisadiyyata müdaxilə etmək va-

cibdir. Bu müdaxilələrin istehsal və məşğulluq həcminə də təsir edəcəyi fikrini irəli sürmüşdü.

**Monetarist məşğulluq nəzəriyyəsi**

1940-cı illər Keyns nəzəriyyəsinin “qızıl illəri” sayılır. Bu dövrdə sənaye ölkələrinin demək olar ki hamısında sürətli milli gəlir və məşğulluq artımı qeydə alınmışdı. Ancaq 1960-cı illərdə eyni sənaye ölkələrində bir tərəfdən işsizlik, digər tərəfdən inflyasiya sürəti artmağa başlamışdı. ABŞ da başda olmaqla bir çox ölkə bu problemləri əvvəldən tətbiq etdikləri siyasətlə həll edə bilmədikləri kimi daha da artmasına səbəb oldu. Tətbiq olunan siyasətin effektiv olmaması və bəzi iqtisadi hadisələri həll edə bilməməsi bu nəzəriyyənin tənqidə səbəb olmasına gətirib çıxardı. Bu tənqidlərin əsas hissəsi “Müasir miqdar nəzəriyyəsi”(Modern Quantity Theory of money)ni meydana gətirməkdə idi. Pul mövzusunda zamanla inkişaf edən bu yanaşma “Pulçuluq” adlandırılırdı. Monetarist adı ilk dəfə 1968-ci ildə bu nəzəriyyənin yaradıcılarından biri olan Karl Brunner tərəfindən istifadə edilmişdi.

Monetarizm əsas inflyasiya problemi ilə maraqlanmışdı. İnflyasiyanın əsas səbəbinin isə hökumətlər tərəfindən pul kütləsinin həddindən artıq və lazımsız artırılması səbəbindən olduğunu bildirmişdi. [5.səh 200] Bu yanaşmaya görə iqtisadiyyatda tələb, istehsal, qiymətlərin ümumi səviyyəsi və məşğulluq kimi əsas iqtisadi fəaliyyətlər pul təklifində meydana gələn dəyişikliyə görə müəyyənləşir.

Məşğulluğun artırılmasına istiqamətlənmiş strategiyaların bu qədər vacib olduğunu izah edən digər göstərici də dünyadakı işsizliyin vəziyyətidir. Sənaye inqilabı ilə meydana gələn və son illərdə bir çox ölkədə böyük insan kütləsini marqlandıran işsizlik anlayışı məşğulluq strategiyasının nə dərəcədə vacib olduğunu göstərir.

1929-cu ildə Dünya İqtisadi Böhranının baş verməsi ilə iqtisadiyyatdakı durğunluğ səbəbindən işsiz kütlənin sayı artdı. Böhranın ən pis dövründə işsizlik 25% -səviyyəsinə çatmışdı.

İndiki dövrdə artan texnoloji inkişaf məşğulluğun quruluşunda köklü dəyişikliyə səbəb oldu. Dövlətlərin iqtisadi və siyasi vəziyyətində ciddi problemlər yarandı və problemlərdən çıxış yolu tapmaq üçün alternativ məşğulluq üsulları tətbiq olunmağa başlandı.

Qısa olaraq 1970-ci ildən sonra siyasi sabitlik, iqtisadi inkişaf, tam məşğulluq, güclü sosial zəmanət və milli həmrəylik əsasında qurulan model köklü dəyişiklik keçirdi. Kapital və işçi qüvvəsi arasındakı tarixi əlaqə, tam məşğulluq, sosial müdafiə və bərabərsizliyin aradan qaldırılması çətinləşmiş və hədəf olmaqdan uzaqlaşmışdı.

Qızıl dövr adlandırılan dövrün bitməsində, şübhəsiz ki, 1970-ci illərdə baş vermiş neft böhranı böyük rol oynamışdı. Neft qiymətlərində gözlənilməyən sürətli artım iqtisadi durğunluq yaradarkək, artan istehsal xərcləri və faiz dərəcələri maliyyə böhranına səbəb oldu və işsizlik faktı əsas iqtisadi və sosial problem olaraq qarşıya çıxdı. Şübhəsiz, 1980-ci idən sonra kapital bazarının qloballaşması və artan beynəlxalq rəqabət maliyyə, pul siyasəti baxımından dövlətləri daha böyük çətinliklərlə üz-üzə qoydu.

İnkişaf etmiş ölkələrdə bu vəziyyətin ən vacib səbəbi texnoloji yeniliklərin daha az məşğulluq yaratmasıdır. Sənaye cəmiyyətindən informasiya cəmiyyətinə keçdikcə işçi sinfinin önəmi azalır və işçi sinfi cəmiyyətdəki vacib istehsal gücü olmaqdan çıxır. Buna cavab olaraq texnologiya sayəsində artan məhsuldarlıq istehsal həcmini inanılmaz səviyyəyə gətirməkdədir. Dünyada istehsalın həcmi artdıqca, məşğulluq azalır və işçi başına düşən istehsal həcmi artır.

İşsizliyin xroniki hala gəldiyi inkişaf etməkdə olan ölkələrdə işçi qüvvəsinin zəif məşğulluğunun səbəbi şəhərətrafı ərazilərdə işçi qüvvəsindən az istifadə olunmasıdır.

İnkişaf etməkdə olan ölkələrdə işsizliyin əsas səbəblərindən biri də kapitalın azlığı və avadanlıqlarla qeyri-kafi silahlanmadır.

Arter Levis inkişaf etməkdə olan ölkələrdə işsizliyin makroiqtisadi səbələrini 5 əsas qrupa ayırıb. İlk olaraq su, torpaq və kapital kimi fiziki ehtiyatlarla nisbətdə çox olan əhali sayı, ikincisi inkişaf etmiş ölkələrə edilən ixraca qoyulan məhdudiyyətlər, üçüncüsü pulun çox dəyərli olması, dördüncüsü aşağı məhsuldarlıq səviyyəsi və beçincisi yüksək idxal meyli. [6, s. 200]

Beynəlxalq Əmək Təşkilatı (BƏT) (İnternational labour organization İLO) tərəfindən hazırlanan məlumatlar dünyadakı işsizliyin hansı vəziyyətdə olduğunu rəqəmlərlə bizə açıqlayır. BƏT illik olaraq dərc etdirdiyi məşğulluq hesabatlarını dünyadakı işsizliyi, ölkələr, bölgələr, yaş qrupları, cins tərkibi və s kimi ünsürləri diqqətə alaraq hazırlayır.

Davamlı dolanışıq vasitələrinin inkişafı ailələrə proqnozlaşdırıla bilən gəlir axını təmin etmək və işçi qüvvəsində bacarıq və bacarıqların yaradılması üçün çox vacibdir. Bu mühitlərdə uzunmüddətli məşğulluq imkanlarının əksəriyyəti dövlət qulluğunda, özəl sektorda və kənd təsərrüfatında cəmləşəcək.

Yuxarıda qeyd olunan nəzəriyyələrdən və praktiki müşahidələrdən nəticə çıxararaq iqtisadi təhlükəsizliyin təminində məşğulluğun rolunun danılmaz olduğunu gördük. Hazırkı iqtisadi şəraitdə bu istiqamətdə yarana biləcək çatışmazlıqları aradan qaldırmaq üçün bir sıra məqamlara ciddi diqqət yetirmək lazımdır. Bunlar aşağıdakılardır:

✓ *Məşğulluğun yaradılması üçün qanun və buna nəzarət edən rəhbərliyin olması.*

✓ *Sürətli təsir yanaşması.* Davamlı dolanışıq vasitələrinin inkişafı uzunmüddətli sülh və iqtisadi artım üçün həyati əhəmiyyət kəsb edir, lakin konkret nəticələrin əldə edilməsi uzun illər tələb edə bilər. İqtisadiyyatın bərpasının önəmli mərhələlərində ən vacib olanı, insanları işə qaytarmaq və pul axını əldə etməkdir.

✓ *İctimaiyyətlə əlaqəli layihələrin həyata keçirilməsində maraqlı olmaq müsbət nəticələr verəcək.* İş imkanlarına ictimai yerlərin təmizlənməsi, yolların və obyektlərin təmiri və ya generatorların quraşdırılması kimi kiçik miqyaslı ərzaq və ya iş üçün pul layihələri daxil ola bilər.

✓ *Davamlılığı yadda saxlamaq, lakin bərpanın çox erkən mərhələlərində ona yersiz vurğu verməkdən çəkinmək.* İstənilən qısamüddətli iş yerlərinin yaradılması proqramı davamlı məşğulluq proqramları ilə paralel qurulmalıdır.

- *Beynəlxalq mövcudluğun iqtisadi təhrifə potensial təsirini tanımaq.* Münaqişədən çıxan əksər cəmiyyətlərdə kənd təsərrüfatı sektoru əsas məşğulluq mənbəyini təmin edir. Kənd təsərrüfatı sektorunun bərpası və torpaq mülkiyyətçilərinə düzgün məhsul yetişdirmək, onları emal etmək və bazara çıxarmaq imkanının yaradılması iqtisadiyyatın bərpasında əsas addımlardır. Şiddətli qarşıdurma zamanı bir çox fermerlər ixrac məhsullarının istehsalını azaldacaq, eyni zamanda yaşayış üçün istehsal olunan məhsulları artıracaqlar. Hökumətlər bəzən hərbi xərclərini maliyyələşdirmək üçün kənd təsərrüfatı məhsullarının ixracına ağır vergilər tətbiq edə bilərlər.
- *Aqrar sektorun sağlamlaşdırılmasına geniş yardım göstərilsin.* Əsas diqqət kənd təsərrüfatında olsa da, bəzən reabilitasiyaya qida emalı və paylanması daxildir ki, bu da şəhər ərazilərindəki işi də əhatə edir. Təcili reabilitasiya tapşırıqlarına aşağıdakılar daxil edilməlidir:

➢ torpaq sahələri təmizlənməli;

➢ toxum, alət və mal-qara ilə təminat;

➢ infrastrukturun, o cümlədən emal və nəqliyyat avadanlıqlarının, suvarma və drenaj qurğularının təmiri, su təchizatının tikintisi, yolların və yerli bazar obyektlərinin abadlaşdırılması;

➢ istehsalçılar, emalçılar və bazarlar arasında əlaqələri artırmaq üçün ticarət əlaqələrinin inkişafı;

➢ kreditə çıxış imkanlarının yaxşılaşdırılması;

➢ heyvandarlığın idarə edilməsi və məhsuldarlığın artırılması üzrə təlimlərin keçirilməsi;

➢ torpaq islahatı və s. daxildir;

✓ *yardım əməliyyatları vasitəsilə yerli əkinçiliyi həvəsdən salmaqdan çəkinmək.* Humanitar fövqəladə hallara cavab olaraq, hökumətlər və yardım təşkilatları ölkəyə ərzaq tədarükünü həyata keçirir. Bu, yerli istehsal olunan qidaya tələbi azaltmaqla yerli ərzaq qiymətlərini aşağı salır. Donor qiymətləndirmələri ərzaq yardımının yerli kənd təsərrüfatına və ya marketinqinə mənfi təsir göstərməməsini təmin etmək üçün yardım əməliyyatlarının potensial təsirlərini müəyyən etməlidir.

✓ *Rifah halının yaxşılaşdırılması və inkişafı.* Davamlı dolanışıq vasitələrinin inkişafı ailələrə proqnozlaşdırıla bilən gəlir axını təmin etmək və işçi qüvvəsində bacarıq və bacarıqların yaradılması üçün çox vacibdir. Bu mühitlərdə uzunmüddətli məşğulluq imkanlarının əksəriyyəti dövlət

qulluğunda, özəl sektorda və kənd təsərrüfatında cəmləşəcək.

✓ *Sərbəst və səmərəli dövlət qulluğu üçün bacarıqlı, məsuliyyətli şəxsləri işə götürün.* Hökumət əməliyyatlarının icrası idarəetmə, texniki və inzibati bacarıqlara töhfə vermək qabiliyyətinə malik şəxsləri tələb edəcək. Dövlət qulluğu adekvat gəlir əldə etməklə uzun müddət ərzində davam etdirilərsə, yeni məşğulluq üçün güclü mənbə ola bilər.

✓ *Çox vaxt iş imkanlarının böyük hissəsini təmin edəcək kənd təsərrüfatı, tikinti və xidmət sektorlarına diqqət yetirmək lazımdır.*

✓ *Mikro müəssisə və ya peşə təhsili alan qadınlara xüsusi diqqət yetirmək.* Onlar ərzaq qıtlığına uyğunlaşmaq və qeyri-formal iqtisadiyyatda mikro sahibkar olmaq üçün kritik bacarıqlar əldə edəcəklər. Dolanışıq vasitələrinin inkişafı strategiyalarında bu reallıq çox vaxt nəzərdən qaçırılır. Qadınlar peşə təhsili imkanlarından kənarda qalır və kredit, aktivlər və texnologiyalara qeyri-bərabər çıxışla üzləşirlər, bu da onları məhdud potensiala malik daha ənənəvi sektorlarda iş tapmağa məcbur edir

Yarandığı gündən Birləşmiş Millətlər Təşkilatı iqtisadi təhlükəsizliyin rifah üçün əhəmiyyətini dərk etmişdir. Ümumdünya İnsan Hüquqları Bəyannaməsinin 25-ci maddəsində göstərilir ki, hər kəsin adekvat həyat səviyyəsinə, habelə işsizlik, xəstəlik, əlillik, dulluq, qocalıq və ya onun imkanlarından kənar şəraitdə digər dolanışıq çatışmazlığı hallarında təminat hüququ vardır. Məsələnin 2030-cu il Dayanıqlı İnkişaf Gündəliyində xüsusi məqsədi olmasa da, Davamlı İnkişaf Məqsədlərinə doğru irəliləyiş, o cümlədən sosial müdafiə sistemləri və hamı üçün tədbirlərin həyata keçirilməsi, universal səhiyyə əhatəsinə doğru irəliləyişlər, təhsil və layiqli əməyin təşviqi daha böyük iqtisadi təhlükəsizliyin təşviqinə kömək edəcəkdir.

İqtisadi etibarsızlığa dəqiq, praktiki məna vermək çətin məsələdir. İnsanların etibarsızlıq hissləri çox vaxt keçmiş təcrübələrinə əsaslanır, yəni mənfi iqtisadi şokların yaşanması etibarsızlıq yaradır, Etibarsızlıq faktiki risklərdən qaynaqlana bilər və ya insanların qavramasına əsaslana bilər. Bir çox cəhətlərinə baxmayaraq, iqtisadi etibarsızlığın əksər tərifləri üçün iki element ümumidir. Birincisi  insanların mənfi hadisələrə məruz qalması və ya gözləntiləri və ikincisi  onların bu cür hadisələrin öhdəsindən gəlmək və nəticələrini bərpa etmək qabiliyyəti.

İqtisadçı alimlər  iqtisadi təhlükəsizliyi fərdlərin, ev təsərrüfatlarının və ya icmaların öz əsas ehtiyaclarını davamlı və ləyaqətlə ödəmək qabiliyyəti kimi müəyyən edir.

Sənaye İnqilabı ilə birlikdə siyasi hakimiyyəti əldə etmək və bunu qoruyub saxlamağın açarı iqtisadiyyatdakı inkişafla ayaqlaşmaq olmuşdur.

Yəni coğrafi kəşflərdən sonra dünyada iqtisadi və siyasi bölgü yaranmağa başladı, Sənaye İnqilabı ilə sürətləndi və XX əsrdə iki dünya müharibəsi baş verdi.

Qeyd etmək lazımdır ki, xalqların gələcəyi üçün həyati əhəmiyyət kəsb edən təbii ehtiyatların əldə edilməsi və təhlükəsizliyinin təmin olunması üçün başqa alternativ  resurslardan istifadəni reallaşdırmağa əsas oldu. İqtisadi təhlükəsizlik ideyasını həm nəzəri, həm də siyasi baxımdan formalaşdırmaq və dərk etmək çətindir. Bu təhlükəsizlik növü, digər təhlükəsizlik növləri ilə çox sıx əlaqəlidir.

### *Nəticə*

İqtisadiyyatda yaranan problemlərin hökumətlərin pul və maliyyə siyasətlərinin düzgün aparılmamasından qaynaqlandığı bildirilmişdi. Rəqabət gücünün, iqtisadiyyatda avtomatik tənzimləmə mexanizmi üçün yetərli olduğuna inanırdılar. Belə strukturda qiymət, ödəniş elastik olduqda, iqtisadi tarazlığın həmişə təmin edildiyini bildirmişdilər.

### ƏDƏBiYYAT

1. Wılləm, J. Barber, “İktisadi Düşünce Tarihi”(Tərcümə: İhsan Durdu), *Çıdam nəşriyyatı, İstanbul, 1991*
2. Wılləm, J. Barber, “İktisadi Düşünce Tarihi”( Tərcümə: İhsan Durdu), *Çıdam nəşriyyatı,, İstanbul, 1991*

3. Savaş, Vural, “İktisatın Tarihi”, *Liberal Düşünce Topluluğu nəşriyyatı, İstanbul,1997*
4. Seyidoğlu, Halil, “Ekonomik Terimler Ansiklopedik Sözlük”, *2-ci nəşr, Güzem Can nəşriyyatı, No:16, İstanbul, 1999*
5. Aktan, Coşkun Can, “Monetarizm ve Rasyonel Beklentiler Teorisi”, İçinde: C.C.Aktan, Politik İktisat, Anadolu *nəşriyyatı,*, İzmir, 2000
6. İyidiker, H“Gelişen Ülkelerde ve Türkiyede İşsizlik Sorunu”, Çukurova Üniversitesi Sosyal Bilimler jurnalı Cild no 1, say 1, s 9-15, 1987

***Парвин Сидги кызы Солтанлы***
***Старший преподаватель, диссертант***
***Азербайджанский Технический Университет,***
***Кафедра «Экономики и статистики»***
***E-mail: pervin.soltanli@aztu.edu.az***

## Роль занятости в поддержке экономической безопасности

***Резюме***

**Цель исследования -** разработка предложений и рекомендаций по ликвидации занятости и безработицы в обеспечении национальной безопасности. Вопрос занятости и безработицы всегда был актуальным экономическим показателем. Однако экономическое развитие и глобализация делают эти вопросы еще более важными.

**Методология исследования** – системный и комплексный подход к изучаемой проблеме. В статье рассматриваются классические и современные теории.

**Актуальность исследования** – полученные результаты могут быть использованы для решения теоретических и практических задач, связанных с ликвидацией безработицы.

**Результатами исследования** являются разработка предложений и рекомендаций по оптимизации экономической политики в странах с развитой рыночной экономикой, регулированию влияния воспроизводства на экономический рост.

**Оригинальность и научная новизна исследования** - Многие страны мира сталкиваются с проблемой безработицы. Из-за быстрого роста населения мира и нехватки капитала отсутствие новых рабочих мест приводит к росту безработицы.

С экономической точки зрения, занятость может быть определена как занятость или использование рабочей силы для получения прибыли. Основой занятости является фактор труда. Потому что труд — это человеческий фактор. Этот фактор, являющийся непосредственно человеческим, занимает особое место среди других факторов. Было бы справедливо напомнить, что занятость является очень важным социально-экономическим понятием, если учесть, что в наше время есть много развитых стран и что в этой стране есть люди, которые хотят зарабатывать себе на жизнь наилучшим образом. Высказаны предложения и рекомендации по устранению безработицы и оптимизации регулирования в этой сфере.

***Ключевые слова: занятость, безработица, экономическое развитие, классическая теория занятости, теория умеренной занятости.***

***Parvin Sidgi Soltanli***
***Head of teacher, dissertation***
***Azerbaijan Technical University***
***Department of “Economics and Statistics”***
***E-mail: pervin.soltanli@aztu.edu.az***

**The role of participation in the support of economic security**

***Summary***

**The aim of the study** It consists of the preparation of proposals and recommendations on the elimination of employment and unemployment in ensuring the national security of the country. The issue of employment and unemployment has always been a topical economic indicator. However, economic development and globalization make these issues even more important.

**The research methodology-** a systematic and comprehensive approach to the problem under study. The article examines classical and modern theories.

**Significance of the application of the research** - the results obtained can be used to solve theoretical and practical problems related to the elimination of unemployment.

**The results of the study**- include the development of proposals and recommendations for optimizing economic policy in countries with developed market economies, the regulation of the impact of reproduction on economic growth.

**Originality and scientific novelty of the research** - Many countries around the world face the problem of unemployment. Due to the rapid growth of the world's population and lack of capital, the lack of new jobs is leading to an increase in unemployment.

In economic terms, employment can be defined as the employment or employment of the workforce for profit. The basis of employment is the labor factor. Because labor is a human factor. This factor, which is directly human, has a special place among other factors. It would be fair to recall that employment is a very important socio-economic concept when we consider that there are many developed countries in our time and that there are people in this country who want to earn a living in the best possible way. Suggestions and recommendations were made to eliminate unemployment and optimize regulation in this area.

***Key words: employment, unemployment, economic development, classical employment theory, modern employment theory.***